UOT 75
https://doi.org/10.59849/2311-8482.2025.4.301

**XƏYALƏ YUSİFOVA***

# MÜASİR AZƏRBAYCAN PLAKAT SƏNƏTİNDƏ EKOLOGİYA PROBLEMLƏRİ

*Məqalədə müasir Azərbaycan plakat sənətində ekoloji problemlərin bədii şəkildə əks olunması araşdırılır. İqlim dəyişikliyi, biomüxtəlifliyin məhvi, sənaye çirkliliyi və ətraf mühitin tükənməsi kimi mövzuların rəssamların yaradıcılığında hansı estetik vasitələrlə və hansı simvolik obrazlarla təqdim olunduğu təhlil edilir. Plakat sənətinin maarifləndirici, çağırış və protest funksiyaları geniş şərh olunur. Əliyeva Nərmin, Bədəl Bədəlov və N.Mustafayevanın ekologiya mövzusunda yaratdıqları plakatlar əsasında bu janrın sosial məsuliyyət daşıyan və vizual aktivizmə yönəlmiş sənət növü kimi formalaşma prosesi sənətşünaslıq kontekstində izah olunur. Məqalə, həmçinin ekoloji təfəkkürün bədii təsvir vasitələri ilə auditoriyaya çatdırılmasının müasirlik və aktuallıq baxımından əhəmiyyətini təsdiqləyir.*

***Açar sözlər:*** *Plakat, ekologiya, təbiət, simvol, kompozisiya, estetika və s.*

## Giriş

XXI əsrdə bəşəriyyətin üzləşdiyi ən ciddi problemlərdən biri ekoloji böhrandır. İqlim dəyişikliyi, təbiət resurslarının tükənməsi, su və hava çirkliliyi, biomüxtəlifliyin məhvi bu gün yalnız elmi və texnoloji deyil, həm də bədii təfəkkürün mühüm tədqiqat obyektinə çevrilmişdir. Xüsusilə plakat sənəti, konkret olaraq çağırış dolu ifadə vasitəsi olaraq qeyd olunan problemləri cəmiyyətin diqqətinə çatdırmaqda effektiv rola malikdir. Müasir Azərbaycan plakat sənəti də bu istiqamətdə ciddi inkişaf yolu keçmiş, gənc və peşəkar rəssamlar ekoloji narahatlıqları təsviri simvollarla təqdim etmişdir.

## Əsas təhlil

Plakat sənəti təsviri incəsənətin ictimai yönümlü sahələrindən biri olmaqla, özündə informativ, təşviqat xarakterli və estetik-funksional məqsədləri birləşdirən mühüm kommunikasiya vasitəsidir. O, yalnız dekorativ və ya təsviri baxımdan cəlbedici olmaqla kifayətlənmir, eyni zamanda ideoloji və sosial məzmun daşıyan, geniş auditoriyaya ünvanlanan bədii çağırış funksiyasını yerinə yetirir. Plakatın əsas məqsədi cəmiyyətin diqqətini aktual problemlərə yönəltmək, onları qısa və yaddaqalan şəkildə təqdim etməkdir. Bu baxımdan o, həm maarifləndirici, həm də tənqidi təbiətə malikdir.

Müasir plakat sənətinin gücü onun qısa, lakonik və eyni zamanda emosional yüklü vizual dillə müraciət etməsindədir. Plakat tamaşaçını düşünməyə sövq etməli, onun əxlaqi, estetik və sosial duyğularına təsir göstərməlidir. Bu təsir imkanları onun qrafik dili, kompozisiya quruluşu, rəng kontrastı vasitəsilə reallaşır.

Azərbaycanda XXI əsrin əvvəllərindən etibarən plakat sənətində ekoloji mövzular ön plana çıxmağa başlamışdır. Bu, qlobal ekoloji böhranın milli mədəni diskursa daxil olması ilə sıx bağlıdır. Plakat sənətində ətraf mühitin çirklənməsi, biomüxtəlifliyin məhvi, iqlim dəyişiklikləri, su və torpaq ehtiyatlarının tükənməsi kimi məsələlər təkrarlanan bədii simvollarla – ağac, heyvan fiqurları, su damcıları, tullantı yığınları, göz yaşı, qum saatı, neft və dəniz simvolları vasitəsilə təqdim olunur. Bu tip elementlər həm xəbərdaredici, həm də protest xarakterli mənalar daşıyır. Misal olaraq, rəssam Əliyeva Nərminin 2016-cı ildə həyata keçirdiyi , "Flora. Fauna. SOS" adlı plakatı göstərmək olar. Yaradıcılıq nümunəsində qum saatı kompozisiyanın mərkəzi təsvir elementi kimi çıxış edir və zamanın tükənməsini simvolizə edən metaforik struktura çevrilir. Qədimdən bəri insanın zamanla bağlı fəlsəfi münasibətini əks etdirən qum saatı burada ekoloji vaxtın azalması, başqa sözlə desək, təbiətin və həyatın ömrünün bitməyə yaxınlaşması ideyasını təqdim edir.

Saatın yuxarı hissəsində fauna və floranı təmsil edən müxtəlif heyvan fiqurları, meşə simvolları və yaşıl təbiət siluetləri yer alır. Bu, hələ qorunan, lakin sürətlə məhvə doğru gedən təbiət mənzərəsinin simvoludur. Onlar “qum” kimi aşağıya axır və zaman keçdikcə təbiətin parçalanaraq tullantı yığınına çevrildiyini görürük. Aşağı hissədə metal parçaları, plastik qablar, məhv olmuş heyvan skeletləri və tullantı elementləri toplanır ki, bu da ekoloji ölümün real nəticələrini göstərir.

Təsvirin fonu boyunca təkrarlanan "SOS" (60x90 sm.) yazısı ümumi kompozisiyanın ideya çağırışının kəskinliyini artırır. “SOS” – qlobal çağırış, təhlükədə olan bir planetin səsi, qurtuluş üçün edilən universal müraciət kimi təqdim olunur. Arxa plan, plakatın səssiz fonunda dayanmadan səslənən bir fəryad kimi şərh oluna bilər.

Plakatın rəng seçimi əsasən yaşıl və qara tonlar üzərində qurulmuşdur. Yaşıl rəng – həyat, ümid, təbiət və tarazlıq anlamı daşıdığı halda, qara – itki, təhlükə və məhv metaforasına çevrilir. Bu iki rəngin qarşılaşdırılması həyatla ölüm, xilasla tükənmə arasında seçim anını vurğulayır.

Kompozisiyada simmetriya qorunmaqla yanaşı, dinamik axın – yuxarıdan aşağıya doğru olan vizual hərəkət – zamanın geri qaytarıla bilməyəcəyi düşüncəsini irəli sürür. Bu hərəkət ritm yaradaraq tamaşaçını yalnız seyrçi deyil, düşünən və reaksiya verən iştirakçıya çevirir. Əsərin əsas çağırış nöqtəsi olan "Zamanı itirmə!" şüarı plakatın aşağı hissəsində qırmızı rənglə vurğulanmışdır. Qırmızı burada təhlükə və həyəcan siqnalı, həm də təcili hərəkət zərurəti ifadə edir. Bu, artıq son anda olduğumuzu və ekoloji geriləmənin qarşısını almaq üçün dərhal tədbir görülməsinin vacibliyini göstərən emosional və rasional mesajdır.

Müasir Azərbaycan plakat sənəti xüsusilə SOS çağırışları və təbiətin antropomorf obrazlarla vəhdəti vasitəsilə metaforaların qabarıqlığı ilə fərqlənir. Belə ki, təbiət obrazlarının ağlayan, əzab çəkən, məhv olan və ya yardım istəyən formada təqdim edilməsi tamaşaçıda məsuliyyət və reaksiya ehtiyacı yaradır. Bu yanaşma ekoplakatların yalnız informativ deyil, həm də etiraza və mübarizəyə səsləyən incəsənət növü kimi inkişaf etdiyini göstərir. Məsələn, 2020-ci ildə rəssam Bədəl Bədəlovun qarışıq texnika ilə həyata keçirdiyi “Ekologiya” (60x90 sm.) adlı yaradıcılıq nümunəsini qeyd olunanlara parlaq misal olaraq göstərmək olar. Plakatda çirklənmiş su məkanları və sənayeləşmənin səbəb olduğu ekoloji fəlakət mövzusu balina obrazı üzərindən təqdim olunmuşdur. Əsərdə əsas diqqət mərkəzində dayanan təsvir motivi balinanın göz yaşları içində təsvir olunmuş kədərli baxışları insan müdaxiləsinin yaratdığı faciənin təbii həyat üzərindəki emosional əks-sədasını simvollaşdırır.

Balina, tarixən dənizlərin ən əzəmətli və müdrik canlısı kimi təsəvvür olunmuşdur. Qeyd olunan plakatda isə balina bütün okean ekosisteminin zərif və müdafiəsiz simvolu kimi təqdim olunur. Onun kədərli sifəti yalnız dramatizmi artırmaq üçün deyil, həm də insanın ətraf mühitə münasibətinin doğurduğu vicdani məsuliyyət hissini oyatmaq məqsədilə istifadə olunur. Balinanın iri, yaşla dolmuş gözləri tamaşaçını səssiz ittihamla qarşılayır ki, bu da həm mənəvi, həm də estetik baxımdan güclü mesajdır.

Əsərdə qara neft ləkəsi dənizə yayılaraq balinanın həyat məkanını məhv edən sürünən ölüm metaforasıdır. Rəng kontrastı təmiz, mavi su fonunda yayılan tünd neft kompozisiyada çirklənmə və korlanmanın miqyasını artırır. Neftin ürək formasında axması, əslində sevgi və həyat rəmzinin qəsdən məhvinə çevrilməsi kimi təqdim olunur. Bu təsviri ironiya, plakata sadəcə estetik deyil, həm də sosial və psixoloji çalarlar qatır.

Əsərin kompozisiya strukturu minimalist olsa da, emosional dərinlik baxımından güclü yüklənmişdir. Karikatura elementləri, xüsusilə, balinanın üz cizgilərində ifadə olunan insanilәşdirilmiş hisslər tamaşaçını duyğulandırır. Burada rəssam antropomorf (insan sifətinə yaxın) bədii təqdimat vasitəsilə heyvan obrazını bir-birini dərk edə biləcək varlığa çevirir. Beləliklə, tamaşaçı təbiətə kənar müşahidəçi kimi deyil, onunla eyni emosional platformada dayanmağa dəvət olunur.

Plakatın alt hissəsində qırmızı ilə vurğulanmış “KİRLƏTMƏ!” şüarı isə yalnız təmkinli xəbərdarlıq deyil, protestin, qəzəbin və səbrin tükəndiyi bir çağırışın bədii təzahürüdür. Bu cür qısa, sərt, birbaşa müraciət forması plakat sənətinin dil lakonizmini və təxirəsalınmaz mesajvermə potensialını önə çıxarır.

Digər tərəfdən, plakat sənəti cəmiyyət və fərd arasında dialoq qurmağa xidmət edən vasitə kimi çıxış edir. Onun təhsil, media və ekoloji siyasətlə inteqrasiyası nəticəsində formalaşan plakat nümunələri həm gənc rəssamların yaradıcı təfəkkürünü, həm də vizual kommunikasiya mədəniyyətini inkişaf etdirir. Ekoloji mövzulu plakatlar bu xüsusda vizual aktivizm adlanan konsepsiyanın Azərbaycan sənətinə inteqrasiyasını da nümayiş etdirir.

Beləliklə, plakat sənəti Azərbaycan müasir incəsənətində ictimai şüuru oyadan, sosial məsuliyyət formalaşdıran və ekoloji çağırışlara bədii cavab verən effektiv vizual dil forması olaraq çıxış edir. Onun potensialı yalnız informativ deyil, həm də simvolik və performativ səviyyədə ölçülür. Məsələn, N.Mustafayevanın 2019-cu ildə yaratdığı “Ekologiya”, (qarışıq texnika, 60x90 sm.) adlı nümunəni göstərmək olar. Plakatda kompozisiyanın mərkəzində insan əlləri ilə əhatəyə alınmış bir ekoloji mənzərə təqdim olunur. Həmin əllər sanki bir körpə kimi təbiəti qorumağa, onu əzizləməyə və saxlamağa çalışan məsuliyyətli və şəfqətli varlığın simvoludur. Bu təsvir insanın təbiət qarşısında daşıdığı etik və əxlaqi borcun bədii təsdiqinə çevrilir. Əllərin içərisində saxlanılan yaşıl mənzərə – meşə, axar su və müxtəlif heyvan növləri – ətraf mühitin bütövlüyünü və onun müxtəlif komponentləri arasındakı harmoniyanı ifadə edir.

Kompozisiyada yer alan ayı, dovşan, tülkü, bayquş kimi canlılar həm biomüxtəlifliyin nümayəndəsi, həm də müxtəlif ekosistemlərin simvolik təmsilçiləridir. Bu canlılar, adətən, uşaq ədəbiyyatında və xalq təsəvvüründə təbiətin müdafiəsiz, məsum və sakit sakinləri kimi təqdim olunur. Plakatda onların bir araya gətirilməsi bioloji tarazlığın və ekoloji birliyin bədii göstəricisidir. Heyvanların gözlərində və duruşlarında qorxu, qəzəb və ya hücum əlamətləri deyil, sakitlik və etibar hissi ifadə olunub ki, bu da onların insan əlinə sığınmış bir varlıq kimi təqdim olunmasına xidmət edir.

Rəng seçimində yaşıl və torpaq çalarları üstünlük təşkil edir, bu isə əsərə təbii mühitə yaxınlıq və real həyatla bağlılıq hissi qazandırır. Aydın fon, sakit kompozisiya quruluşu və balanslı məkan bölgüsü əsərin sadə, lakin dərin mənalı məzmununu dəstəkləyir. Bu baxımdan plakat həm də nağılvari estetikaya malikdir, burada təbiət mükəmməl bir aləm kimi təqdim olunur, insan isə onun qəyyumu və himayəçisidir.

Əsərdə yazılmış “Faunamıza sahib çıxaq!” çağırışı sadəcə bir şüar deyil, həm də əxlaqi çağırışın və sosial məsuliyyətin sənət dili ilə ifadəsidir. Çağırışda təbiətin müdafiəyə ehtiyacı olan bir dəyər kimi təqdim olunması ideyası əsas yer tutur. Cümlədəki “sahib çıxmaq” ifadəsi həm hüquqi qoruma, həm də mənəvi bağlılıq mənasını daşıyır və insanı təbiətə qarşı həm rəhmli münasibətə, həm də praktik tədbir görməyə səsləyir.

Əsərin əsas cəhətlərindən biri də onun maarifləndirici və ruhlandırıcı yükə malik olmasıdır. Burada təhdid, qadağa və ya fəlakət yox, əksinə qoruma, birlik və müsbət müdaxilə motivləri ön plana çıxarılır. Bu xüsusiyyət plakatı protest deyil, təşviqedici və təşəbbüsə çağıran sənət nümunəsi səviyyəsinə yüksəldir. Beləliklə, plakat həm bədii quruluş baxımından harmonik, həm də ideoloji və etik baxımdan balanslı bir əsər kimi çıxış edir. O, insan və təbiət arasında itirilmiş və ya zəifləyən münasibətlərin bərpasına səsləyən estetik dəyərləndirmə vasitəsi olaraq müasir Azərbaycan plakat sənətində öz sözünü deyir.

**Nəticə**

Ümumiyyətlə, plakat sənəti müasir Azərbaycan təsviri incəsənətində ekoloji problemlərə estetik, çağırış və maarifləndirmə funksiyası daşıyan vacib vasitəyə çevrilmişdir. Rəssamlar öz

işlərində cəmiyyətə məsuliyyət mesajı verir, təbiətin məhvinə “STOP” deyir, gələcək üçün yaşıl vizyon təklif edirlər. Bu baxımdan, plakat sənəti həm mədəniyyətin ekoloji şüuru oyadan gücünü, həm də incəsənətin sosial vəzifəsini əyani şəkildə nümayiş etdirir.

## ƏDƏBİYYAT

1. Əliyev, C. Azərbaycan təsviri sənətində sosial mövzular. Bakı: Elm və təhsil, 2016, s. 122-126.
2. Abbasov. A. Rəqəmsal sənət və ekoloji dizayn: çağırışlar və imkanlar // İncəsənət və zaman, 2020, № 2, s. 34–39.
3. Nəzərova, N. Plakat sənəti və onun müasir funksiyaları. Bakı: ADRA nəşriyyatı, 2018 s. 74–77.
4. Müsabiqə kataloqu: Ekoloji dizayn və plakat. Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, 2019–2021.

***Azərbaycan Rəssamlıq Akademiyasının dissertantı**
**E-mail: xeyaleyusifova@icloud.com***

**Khayale Yusifova**

## ECOLOGICAL ISSUES IN CONTEMPORARY AZERBAIJANI POSTER ART

The article explores the artistic reflection of ecological problems in contemporary Azerbaijani poster art. It analyzes the aesthetic means and symbolic imagery through which artists address such themes as climate change, loss of biodiversity, industrial pollution, and environmental depletion. The educational, motivational, and protest functions of poster art are examined in detail. Based on the ecological-themed posters by Narmin Aliyeva, Badal Badalov, and N.Mustafayeva, the paper interprets the formation of this genre as a socially responsible and visually activist art form within the context of art studies. The article also emphasizes the relevance and importance of conveying ecological consciousness through artistic representation in the modern cultural landscape.

**Keywords:** *poster, ecology, nature, symbol, composition, aesthetics*

**Хаяле Юсифова**

## ЭКОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНСКОМ ПЛАКАТНОМ ИСКУССТВЕ

В статье исследуется художественное отражение экологических проблем в современном азербайджанском плакатном искусстве. Анализируется, с помощью каких эстетических средств и символических образов художники раскрывают такие темы, как изменение климата, уничтожение биологического разнообразия, промышленное загрязнение и истощение окружающей среды. Подробно рассматриваются просветительская, призывная и протестная функции плаката. На примере плакатов Нармин Алиевой, Бадал Бадалова и Н. Мустафаевой,

созданных на экологическую тематику, объясняется процесс формирования данного жанра как социально ответственного и направленного на визуальный активизм вида искусства в контексте искусствоведения. Статья также подтверждает значимость художественной интерпретации экологического мышления в современном и актуальном культурном контексте.

**Ключевые слова:** *плакат, экология, природа, символ, композиция, эстетика*

*AMEA-nın müxbir üzvü Cəfər Qiyasi tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 11.10.2025**
**Son daxilolma tarixi:08.11.2025**